# Müqəddəs adı uca tutmaq böyük şərəfdir



Ölkəmizdə son illərdə neft kapitalını insan kapitalına çevirməyi qarşıya məqsəd qoyan möhtərəm Prezidentimiz İlham Əliyev olduqca mühüm qərarlar qəbul etməklə artıq bu amalına nail olmuşdur. Bu gün vətənimizin hansı guşəsinə nəzər salsaq, orada bir yüksəliş, inkişaf və tərəqqi görərik. Gündən-günə vüsət alan iqtisadiyyatımız, təhsilimiz və mədəniyyətimiz bizə əsas verir ki, ümummilli liderimiz, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevi böyük qürur və iftixarla yad edək. Bəli, məhz onun uzaqgörən, məqsədyönlü, ardıcıl siyasətinin nəticəsidir ki, Azərbaycan bütün sahələrdə geniş üfüqlər fəth edir, cəmiyyətdə yaşayan hər bir insana diqqət və qayğı günbəgün artır. Böyük şəxsiyyətin geniş şəkildə davamı olaraq, təhsilə, müəllimə, müstəqil Azərbaycanın sabahı olan gənclərə böyük diqqət, tükənməz qayğı, sonsuz məhəbbət bu gün ölkə başçısı cənab İlham Əliyevin siyasətinin əsas qayəsidir.

Məhz bu siyasəötin nəticəsində son illərdə ölkədə istedadlı uşaq və gənclərin səmərəli təhsil almasını təmin etmək məqsədilə yeni tipli tədris müəssisəsinin şəbəkəsi genişləndirilmiş, təmayül sinifləri formalaşdırılmışdır.

Dövlətimizin bu sahəyə göstərdiyi qayğıdan bəhrələnməklə uğurları günbəgün artıran təhsil ocaqları bu günü dünənindən daha yaxşı göstəricilərlə başa vurmaq, göstərilən etimadı şərəflə doğrultmağa səy göstərirlər.

Belə kollektivlərdən biri də ölkəmizin şimal-qərb bölgəsində—Balakən rayonunda fəaliyyəti nəinki, rayonda, həmçinin bölgədə ən qabaqcıl təhsil müəssisəsi hesab olunan Humanitar və Texniki təmayüllü liseyin uğurları olduqca çoxdur. **Balakən Rayon Təhsil Şöbəsinin müdiri, bacarıqlı təhsil təşkilatçısı Vahid Əliyevlə** söhbətimiz zamanı öyrəndik ki, Humanitar və Texniki Təmayüllü Liseyin son illərdə ölkə miqyasındakı liseylər arasında qabaqcıllığı əldən verməməsinin başlıca səbəblərindən biri də kollektivin bütün üzvlərinin işə bəslədiyi böyük məsuliyyət və can yanğısıdır. Liseydə olarkən bu deyilənlərin bir daha şahidi olduq.

Öyrəndik ki, bu qabaqcıl təhsil ocağına öz işinin mahir bilicisi olan, "Tərəqqi" medallı Şaban Abdullayev rəhbərlik edir. Uzun illərdir ki, sadə əməyi, lakin böyük işgüzarlığı və işə peşəkar münasibəti nəticəsində ad-san qazanmış Şaban müəllim nəinki doğulub boya-başa çatdığı Balakən rayonunda, eləcə də bütün bölgədə nümunəvi pedaqoq kimi tanınır.

Rahbərlik etdiyi təhsil müəssisəsinin uğurlarından ürəkdolusu danışan direktor bildirdi ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə tədris ilinin "Ümumi təhsildə keyfiyyət ili" elan edilməsi fəaliyyətlərinin ümumi təhsilin keyfiyyətinin artırılması istiqamətində birləşdirilməsini təmin etməyə xidmət edir.

Təhsil Nazirliyinin bu əmrini əldə rəhbər tutaraq rayonun Humanitar və texniki təmayüllü liseyinin kollektivi tədris ilində təhsilin keyfiyyətini yüksəltməyi, daha keyfiyyətli təhsil verməyi qarşısına məqsəd qoymuşdur. Tədris ilinin əvvəlindən hədəflər bir qədər konkretləşib. Belə ki, bu il əvvəlki illərdə qazandığımız uğurları bir qədər də artırmağı, təhsildə keyfiyyəti yüksəltməyi, o cümlədən də IX və XI sinif şagirdlərinin imtahan nəticələrini yüksəltməyi qarşıya məqsəd qoymuşuq.

Liseydə bu il X siniflərdəki 71 şagird üç təmayüldə - texniki-riyaziyyat iqtisadiyyat (21 şagird), texniki-təbiət (26 şagird), humanitar (24 şagird), XI siniflərdə də şagirdlər texniki (20 şagird), texniki-təbiət (20 şagird), humanitar və riyaziyyat-iqtisadiyyat (20 şagird) olmaqla üç təmayüldə təhsillərini davam etdirirlər. Bu siniflər ilin əvvəlindən şagirdlərin, valideynlərin arzu və istəkləri nəzərə alınmaqla komplektləşdirmişdir. Bu siniflərdə dərs deyəcək müəllimlər də şagirdlərin arzularına uyğun olaraq seçilib.

Lisey rəhbərliyi tərəfindən ötən tədris ilində 4 dəfə sınaq imtahanları aparılmış, 16.11.2018-ci il tarixdə sınaq da uğurla keçirilmişdir. VII-IX siniflərdəki sınaqlar bütün əsas fənləri, X-XI siniflərdəki sınaqlar isə qruplar üzrə olan fənləri əhatə edir. Sınaqların nəticələri hər dəfə şagird, müəllim və valideynlərlə birgə müzakirə olunmuşdur. Lisey rəhbərliyi tərəfindən sınaqlarda ən yaxşı nəticə göstərən şagirdlərimiz fəxri fərmanla, ən yaxşı nəticə göstərən sinfimiz isə "Keçici bayraq"la təltif olunub ki, qaliblər VII, VIII, IX sinifləridir. "Keçici bayraq" növbəti sınaqda ən yaxşı nəticə göstərən sinfin ən yaxşı nəticə göstərən şagirdinə verilir ki, sinfin görkəmli yerində saxlansın. Bu da şagirdlərimizi daha həvəslə çalışmağa sövq edir. 02.06.2018-ci il tarixdə keçirilən sınaqda VII siniflərdən ümumilikdə 13 şagird, VIII siniflərdən ümumilikdə 26 şagird, IX siniflərdən ümumilikdə 19 şagird olmaqla cəmi 58 şagird bütün fənlərdən "4" və "5" qiymət almışdır. Bu nailiyyətə görə "Keçici bayraq" VIIIt[1] sinfinə verilib. VII-IX siniflərdən İsgəndərli Leyla Fazil qızı bütün dörd sınaqdan, Həsənquliyeva Nübar Novruz qızı üç sınaqdan, Rəhmanova Rəqsanə Hacıxan qızı iki sınaqdan, Bürcəliyeva Fatma Qəhrəman qızı iki sınaqdan, Bazarov Hacı Şamil oğlu - bir sınaqdan, Mehdiyeva Zülfiyyə Rasim qızı bir sınaqdan, Göylərov Kənan Məhəmməd oğlu bir sınaqdan, Varşayev Şamil Elşad oğlu bir sınaqdan bütün fənlər üzrə "5" qiymətlər almışlar. "Uğurdan gələcəyə" adlı II Qrand müsabiqəsinin layihəsində iştirak edən, Quba, Daşkəsən və Balakən rayonlarının IX sinfin buraxılış imtahanlarında ən yaxşı nəticə göstərən 6 şagirddən ən yüksək bal toplayan İsgəndərli Leyla Fazil qızı liseyimizin şagirdidir.

Ötən tədris ilində şagirdlərimiz bir çox Respublika əhəmiyyətli yarışlarda iştirak edib uğurlar qazanmışlar. Belə ki, 10 dekabr - Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə keçirilən "Mən və hüquqlarım" mövzusunda ənənəvi uşaq rəsm müsabiqəsində iştirak etmiş VIII və IX sinif şagirdləri Qafarov Sənan Vüqar oğlu II yerə, Balayeva Firəngiz Azad qızı həvəsləndirici yerə layiq görülmüşdür. 13-15 dekabr tarixlərində keçirilmiş "Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik" müsabiqəsində XIt[2] sinif şagirdləri İbadova Xatirə Fazil qızı və Quradayeva Əminəxatun Mübariz qızı I yerə layiq görülmüşlər. Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu tərəfindən Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasının 100 illiyinə və milli lider H.Əliyevin anadan olmasının 95-ci il dönümünə həsr olunmuş Azərbaycan müasirlik və gələcəyin qovuşuğunda mövzusunda keçirilmiş müsabiqədə XI sinif şagirdləri Hacıyeva Altunay Nizami qızı, "Heydər Əliyev və azərbaycançılıq", Kazımova Leyla İmran qızı "Azərbaycanı tanıyaq" mövzusunda, Şindiyeva Nigar Elşad qızı "Azərbaycan mədəniyyəti və incəsənəti" mövzusu ilə iştirak etmişdir. 22-25.02.2018-ci il tarixlərində Bakı şəhəri Xətai Sənət Mərkəzinin keçirdiyi Xocalıya həsr olunmuş "Şəhid şəhər" Respublika uşaq rəsm müsabiqəsində fəal iştirakına görə liseyin 4 gənc rəssamı, 14-18.03.2018-ci il tarixlərində "Yurdumuza bahar gəlir" Respublika uşaq rəsm müsabiqəsində isə 3 şagirdimiz təltif edilmişdir.

Ümumdünya Poçt İttifaqı və Təhsil Nazirliyi ilə birgə təşkil olunmuş müsabiqədə "Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli şəxsiyyətləri" mövzusu ilə XI sinif şagirdləri Bazarov Nurlan Nəriman oğlu, Hacıxanova Şəhla Aydın qızı, Məmmədova Dilbər Mehman qızı qatılmışdılar. Bazarov Nurlan Nəriman oğlu 19.05.2018-ci il tarixdə Bakışəhərində müsabiqənin IV yer mükafatçısı kimi diplomla təltif olunub.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsildə inkişaf və innovasiyalar üzrə I qrant müsabiqəsi-STEM Azərbaycanda" layihəsi çərçivəsində həyata keçirilən "Azərbaycanda STEM müəllimləri" Respublika müsabiqəsində iştirak edən Əfəndiyeva Fatma Musa qızı öz şagirdləri Quradayeva Əminəxatun Mübariz qızı - XI sinif, Quradayeva Havva Mübariz qızı Qafarov - XI sinif, Sənan Vüqar oğlu - XI sinif, İbadova Şəhla Fuad qızı, Sərkərova Fidan Rasim qızı - III yerə layiq görülmüşlər.

Məktəblilərimizdən 15 nəfəri Şəki şəhərində keçirilən "Əlaçı" televiziya verlişində iştirak etmiş, onlardan beş nəfəri Bakı şəhərindəki "Bayraq Meydanı"nda keçirilən final mərhələsində uğurla çıxış etmişdir. Kollektivimizin ən böyük uğurlarından birini də qeyd etmək istərdim.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Şəki, Qax, Zaqatala və Balakən rayonlarının ali və orta məktəblərinin tələbələri və yuxarı sinif şagirdləri arasında keçirilən və 12 noyabr - Konstitusiya Gününə həsr olunmuş "Hüquqi dövlətin əsasları" mövzusunda hüquq olimpiadasına yekun vurulub.

Olimpiadanın təşkilat komitəsindən verilən məlumata görə, Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzində qaliblərin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə çıxış edən Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunan ilk milli Konstitusiyanın dövlətçiliyimizin formalaşması və inkişafında böyük əhəmiyyəti olduğunu bildirib. Qeyd olunub ki, ilk milli Konstitusiyanın qəbulundan ötən müddət ərzində Azərbaycanda insan hüquq və azadlıqları tam bərqərar olub, demokratik və hüquqi dövlət quruculuğu sahəsində böyük uğurlar qazanılıb, mühüm qanunvericilik aktları qəbul edilib.

İcra hakimiyyətinin başçısı hüquq olimpiadasının Zaqatala rayonunda təşkilinə görə Konstitusiya Məhkəməsinin rəhbərliyinə və əməkdaşlarına minnətdarlığını bildirib.

Konstitusiya Məhkəməsinin Konstitusiya hüququ şöbəsinin müdiri Dürdanə Məmmədova Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin müraciətini iştirakçıların diqqətinə çatdırıb.

Hüquq olimpiadasının nəticələrini elan edən Dürdanə Məmmədova bildirib ki, builki olimpiadada Şəki və Zaqatalada fəaliyyət göstərən 2 universitet filialının, 3 kollecin tələbələri, Şəki, Qax, Zaqatala və Balakən rayonlarının hər birindən 7 məktəb olmaqla, ümumilikdə, 28 ümumtəhsil müəssisəsinin yuxarı sinif şagirdləri iştirak ediblər. Olimpiadada şagirdlərə Azərbaycan Respublikasının Konstitusiyasını əhatə edən 50 sual təqdim olunub. Hər düzgün cavab 2 balla qiymətləndirilib.

Konstitusiya Məhkəməsinin keçirdiyi hüquq olimpiadaları tarixində ilk dəfə olaraq iştirakçılardan biri—10-cu sinif şagirdi **Nihat Şindiyev** bütün sualları doğru cavablandıraraq 100 bal toplamağa müvəffəq olub. Beləliklə, o, Konstitusiya Məhkəməsinin təsis etdiyi kubok, xatirə hədiyyəsinə və diploma layiq görülmüşdür.

Son olaraq qabaqcıl təhsil ocağının rəhbəri Şaban Abdullayev onu da bildirdi ki, bu səpkidən olan uğurlarımız çoxdur. Kollektivimizin hər bir üzvü yaxşı başa düşür ki, müəllim əməyinə verilən yüksək dövlət qiymətinin müqabilində hər hansı uğurla kifayətlənmək olmaz.

Dövlətimizin gündəlik qayğısına, Təhsil Nazirliyininn, Balakən Rayon İcra Hakimiyyəti rəhbərliyinin, həmçinin rayon təhsil şöbəsinin müntəzəm problemlərimizin həllinə yönələn diqqətinə cavab olaraq bundan sonra da var qüvvəmizlə çalışacaq, müqəddəs müəllim adını daim şərəflə doğruldacağıq.

**İlham PƏNAHOV,**
**"Respublika".**